**Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 04 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"ndan**

**ÇIXARIŞ**

**II. İnzibati və yardımçı vəzifələrin təsnifatları və adları:**

2.1. «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq inzibati vəzifələrin aşağıdakı təsnifatları və adları vardır:

**2.1.2. İnzibati vəzifələrin birinci təsnifatı:**

- Azərbaycan Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi, **Azərbaycan Respublikası Hesablama Palatası**, Məhkəmə-Hüquq Şurası və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) aparatlarının rəhbərləri;

**2.1.3. İnzibati vəzifələrin ikinci təsnifatı:**

- Azərbaycan Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisi, **Azərbaycan Respublikası Hesablama Palatası**, Məhkəmə-Hüquq Şurası, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) aparatları rəhbərlərinin müavinləri və həmin dövlət orqanlarında şöbə müdirləri;

**2.1.4. İnzibati vəzifələrin üçüncü təsnifatı:**

- Azərbaycan Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, **Azərbaycan Respublikası Hesablama Palatası**nın, Məhkəmə-Hüquq Şurasının, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) aparatlarında, Azərbaycan Respublikasının Baş Prokurorluğunda şöbə müdirinin müavini;

- Azərbaycan Respublikasının Ali Məhkəməsi sədrinin, **Azərbaycan Respublikasının Hesablama Palatası** sədrinin və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) köməkçiləri;

**2.1.5. İnzibati vəzifələrin dördüncü təsnifatı:**

- Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, **Azərbaycan Respublikası Hesablama Palatası**nın, Məhkəmə-Hüquq Şurasının və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) aparatlarında sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, Azərbaycan Respublikasının Baş Prokurorluğunda sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi;

**2.3.2. Yardımçı vəzifələrin ikinci təsnifatı:**

- Azərbaycan Respublikası Ali Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, **Azərbaycan Respublikası Hesablama Palatasının,** Məhkəmə-Hüquq Şurasının, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) aparatlarında, Azərbaycan Respublikasının Baş Prokurorluğunda baş mütəxəssis, böyük mütəxəssis, aparıcı mütəxəssis, mütəxəssis;

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 4 avqust 2003-cü il**
**№ 911**